**UOT: 323**
https://doi.org/10.59849/2409-4838.2026.2.86

# QLOBALLAŞMA DÖVRÜNDƏ DÖVLƏTİN SİYASİ HAKİMİYYƏTİNİN ZƏİFLƏMƏSİ: YENİ GÜC MƏRKƏZLƏRİ VƏ TRANSMİLLİLİK

**Nadir Aqil oğlu Mirzəlizadə**
Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
nadirmirzalizade@gmail.com

*Tədqiqatı aparılan mövzu günümüzdə çox aktual hesab olunur. Bu məqsədlə araşdırmada qloballaşma dövründə dövlətin siyasi hakimiyyətinin zəifləməsini nəzəri və empirik kontekstdə izah etməyi qarşısına məqsəd qoyur. Tədqiqatın əsas məqsədi qloballaşmanın dövlətin siyasi hakimiyyətinə təsir edən mexanizmlərini müəyyənləşdirməkdir. Bundan başqa qloballaşma dövründə yeni güc mərkəzlərinin yaranma səbəblərini və onların dövlətin legitimlik bazası ilə münasibətini izah etməkdir.*

*Bu məqsədlə aşağıdakı elmi vəzifələr müəyyən edilir:*

*Qloballaşma və siyasi hakimiyyət anlayışlarının nəzəri əsaslarını izah etmək, dövlətin siyasi hakimiyyətinin zəifləməsinə səbəb olan əsas qlobal prosesləri müəyyənləşdirmək, transmilli aktorların (korporasiyalar, beynəlxalq təşkilatlar, QHT-lər, media və s.) siyasi güc sistemində artan rolunu araşdırmaq, dövlətin siyasi hakimiyyətinin adaptasiya mexanizmlərini və yeni idarəetmə formalarını qiymətləndirmək.*

*Məqalənin elmi hipotezi ondan ibarətdir ki, qloballaşma prosesi dövlətin siyasi hakimiyyətini tamamilə ləğv etmir. Qloballaşma siyasi hakimiyyətin struktur və funksional sərhədlərini dəyişdirərək hakimiyyətin çoxmərkəzli xarakter almasına səbəb olur. Məqalənin elmi əhəmiyyəti ondan ibarətdir ki, tədqiqatda qloballaşmanın dövlətin siyasi hakimiyyətinə təsirini yalnız iqtisadi və hüquqi aspektdə deyil, həmçinin siyasi nəzəriyyə, ideologiya və güc münasibətləri prizmasından araşdırır. Bu baxımdan müasir dövrdə dövlətin siyasi hakimiyyətinin transformasiyası ilə bağlı yeni analitik çərçivə təqdim edilir. Metodoloji baxımdan tədqiqat struktur-funksional, tarixi-komparativ və analitik yanaşmaların sintezinə əsaslanır ki, buda dövlətin siyasi hakimiyyətini təkcə institutların fəaliyyəti kimi deyil, eləcədə sosial münasibətlər, ideoloji və informasiya asimmetriyaları sistemində təhlil etməyə imkan verir. Beləliklə, aparılan araşdırma qloballaşma və transmillilik proseslərinin dövlətin siyasi hakimiyyətinə təsirini çoxölçülü bir fenomen kimi araşdırır. Məqalə klassik suverenlik anlayışına, həm də müasir qlobal siyasət nəzəriyyələrinə töhfə verməyi qarşısına məqsəd qoyur.*

***Açar sözlər:*** *Qloballaşma, siyasi hakimiyyət, dövlət suverenliyi, hakimiyyətin transformasiyası, qlobal siyasət, siyasi modernləşmə.*

## GİRİŞ

Ötən əsrin sonu və yeni əsrin əvvəlləri siyasi elmlərin ən köklü anlayışlarından olan hakimiyyət kateqoriyasına yeni yanaşmaların formalaşdığı dövr olmuşdur. Xüsusilə, qloballaşmanın sürətlə artması, beynəlxalq inteqrasiyanın dərinləşməsi eləcədə transmilli aktorların siyasi qərarvermə üzərində artan təsirinə görə dövlətin siyasi hakimiyyətinin mahiyyəti ciddi şəkildə transformasiyaya uğramışdır. Əvvəlki dövrlərdə dövlətin siyasi hakimiyyəti suverenlik, ərazi bütövlüyü və mərkəzdən idarə üzərində qurulurdu. Müasir dövrdə isə bu artıq çoxmərkəzli güc strukturları, qlobal qarşılıqlı asılılıqlar fonunda nəzərdən keçirilir.

Qloballaşma təkcə iqtisadi hadisə deyil. O, həm də siyasi və ideoloji fenomen kimi dövlətin hakimiyyət strukturuna, legitimlik mexanizmlərinə bilavasitə təsir göstərir. Dövlətlərin sürətli inteqrasiyası, beynəlxalq hüququn təsir dairəsinin əhəmiyyətli dərəcədə genişlənməsi, transmilli korporasiyaların və beynəlxalq təşkilatların siyasi rolunun kəskin artması dövlətlərin suveren qərarvermə

qabiliyyəti getdikcə məhdudlaşır. Bu proses politologiyada “dövlətin zəifləməsi”, “suverenliyin eroziyası” , “hakimiyyətin paylanması” kimi anlayışlarla ifadə olunur.

Müasir siyasi ədəbiyyatlarda yuxarıda qeyd etdiyim problem çoxölçülü şəkildə izah edilir. Suzan Streync “Dövlətin geri çəkilməsi” əsərində qeyd edir ki, dövlətin iqtisadi idarəetmə funksiyaları beynəlxalq iqtisadi münasibətlərin qloballaşması üzündən bazar qüvvələri və transmilli kapital qarşısında zəifləyir [13]. David Held və Antoni Giddens qloballaşma şəraitində dövlətin artıq təkbaşına nə regional, nə də beynəlxalq prosesləri idarə edə bilmədiyini vurğulayırlar. Onlara görə qloballaşma siyasi idarəetmənin yeni mərhələsidir [8]. Manuel Kastels və Saskiya Sassen isə bu transformasiyanı şəbəkə cəmiyyəti və transmilli suverenlik anlayışları üzərindən izah edirlər. Bu prosesin fundamentini təşkil edən ən əsas məsələ hakimiyyətin mənbələrinin dəyişməsi eləcədə gücün yeni daşıyıcılarının meydana çıxmasıdır [5, 13]. Başqa sözlə desək əvvəllər gücün əsasını hərbi və iqtisadi potensial təşkil edirdisə, bu gün İKT və mədəni təsir kimi qeyri-maddi amillər siyasi gücün formalaşmasında həlledici rol oynayır. Nəticə etibarilə dövlətin siyasi hakimiyyəti artıq yalnız milli sərhədlər daxilində tətbiq edilən bir mexanizm deyil. O, həmdə qlobal səviyyədə paylanmış və çoxpilləli təsir sisteminin bir elementi kimi fəaliyyət göstərir.

## ƏSAS HİSSƏ

## QLOBALLAŞMA VƏ DÖVLƏTİN SİYASİ HAKİMİYYƏTİNİN TRANSFORMASİYASI

Qloballaşma müasir politologiyanın ən çox müzakirə olunan həmçinin ən çox yanlış başa düşülən fenomenlərindən biridir. Elmi ədəbiyyatlarda çoxsaylı tərifləri olmağına baxmayaraq ən ümumi şəkildə *qloballaşma iqtisadi, siyasi, sosial və mədəni münasibətlərin milli sərhədləri aşaraq planetar miqyasda qarşılıqlı asılılıq sisteminə çevrilməsidir.* O, təkcə iqtisadi inteqrasiyanı deyil, hakimiyyət münasibətlərinin məkansal və funksional dəyişməsini özündə birləşdirir.

Bu anlayışı David Held, Antoni Makqru, Manuel Kastels, Ulriç Bek, Roland Robertson, Saskia Sassen və başqaların elmi əsərlərində görmək olar. Held və Makqru qloballaşmanı milli dövlətlərin idarəetmə sərhədlərinin zəifləməsi, beynəlxalq sistemin çoxpilləli koordinasiya mexanizmləri ilə əvəz olunması kimi qiymətləndirirlər [8]. Kastels isə qloballaşmanı İT-in yaratdığı şəbəkə cəmiyyətinin siyasi nəticəsi kimi şərh edir ki, ona görə, hakimiyyət artıq təkcə dövlət institutlarında deyil, şəbəkə əlaqələrinin mərkəzlərində cəmlənir [5]. Ulriç Bekin risk cəmiyyəti konsepsiyasına görə qloballaşma nəticəsində dövlətlərin milli idarəetmə imkanları azalmışdır. Əvəzində qlobal risklər (ekoloji böhran, maliyyə sabitsizliyi, miqrasiya dalğaları və s.) isə dövlət sərhədlərini aşaraq yeni transmillilik formalarını yaratmışdır. Bu proses dövlətin siyasi hakimiyyətinin klassik modelini başqa sözlə desək suveren qərarvermə və tam nəzarət anlayışını reallıqdan uzaqlaşdırır [3].

Siyasi hakimiyyəti politologiyada çoxcəhətli bir anlayış kimi formalaşmışdır. Ənənəvi baxışa görə, siyasi hakimiyyət müəyyən sosial qrupun yaxud siyasi institutların başqalarının davranışına legitim təsir göstərmək həmçinin qərar qəbul etdirmək qabiliyyətidir. Maks Veber hakimiyyətin üç əsas formasını verirdi: ənənəvi, xarizmatik və rasional-hüquqi. Veber qeyd edir ki, dövlətin siyasi hakimiyyəti bu legitimlik formalarının kombinasiyası üzərində qurulur [15]. Bildiyiniz kimi müasir dövrdə hakimiyyətin təbiəti dəyişmişdir. Bu səbəbdən Veberin bu prizması artıq qloballaşma şəraitində tam izahedici gücə malik deyil. Faukata görə siyasi hakimiyyət diffuz və hər yerdə mövcud olan münasibət formasdır. Faukatın fikrincə, hakimiyyət yalnız zorakılıq və inzibati məcburiyyətlə deyil, o həmdə bilik, diskurs və nəzarət mexanizmləri vasitəsilə həyata keçirilir. Bu üzdən dövlətin siyasi hakimiyyəti qloballaşma şəraitində daha çox dispersiv və şəbəkə xarakterli bir fenomenə çevrilir [7]. Pier Bourdi simvolik hakimiyyət anlayışını irəli sürərək nəzərə çatdırır ki, hakimiyyətin təsir gücü çox zaman iqtisadi, hərbi amillərdən deyil, mədəni və ideoloji hegemonluqdan qaynaqlanır. Bu fikir müasir dövrdə yumşaq güc konsepsiyası ilə uzlaşır. Nəticə etibarilə dövlətin siyasi hakimiyyəti artıq inzibati və hüquqi nəzarətlə deyil, həmçinin simvolik və diskursiv resurslarla qorunur [4].

Müasir politoloji ədəbiyyatlarda qloballaşma ilə dövlətin zəifləməsi arasında əlaqəni izah edən müxtəlif nəzəri məktəblər yaranmışdır. Onları üç istiqamətə bölmək olar: qlobalistlər, skeptiklər və transformasionistlər.

Qlobalist yanaşma: Bu istiqamətin tərəfdarları göstərir ki, qloballaşma dövlətin iqtisadi, siyasi və ideoloji müstəqilliyini ciddi şəkildə məhdudlaşdırır. Suzan Streync "Dövlətin geri çəkilməsi" əsərində qeyd edirdi ki, qlobal bazar münasibətləri və beynəlxalq maliyyə sistemləri dövlətin ənənəvi iqtisadi idarəetmə alətlərini zəifledir. Yazara görə dövlət qloballaşma dövründə kapital axınlarını, valyuta dəyərlərini, istehsal münasibətlərini tam tənzimləyə bilmir və nəticədə dövlətin siyasi müstəqilliyi də məhdudlaşır [14]. Qlobalist yanaşmanın tərəfdarları hakimiyyətin artıq milli dövlətlərdən çıxaraq qlobal bazar strukturlarına, beynəlxalq təşkilatlara və transmilli korporasiyalara keçdiyini bildirirlər. Başqa sözlə gücün mənbələri qlobal miqyasda paylanmışdır.

Skeptik yanaşma: Skeptiklər hesab edirlər ki, dövlətin zəifləməsi barədə iddialar şişirdilmişdir. Onlar zənn edirlər ki, dövlət bugün də əsas siyasi və iqtisadi oyunçudur. Qloballaşma prosesləri isə dövlətlərin nəzarəti altında formalaşır ki, artıq o, dövlətin deyil, beynəlxalq siyasətin yeni mərhələsidir. Skeptiklər dövlətin beynəlxalq sistemdə əsas qərarverici subyekt olaraq qalmaqda davam etdiyini vurğulayırlar. Onlara görə dövlət həmçinin legitimlik və təhlükəsizlik funksiyalarını da özü qoruyur.

Transformasionist yanaşma: Transformasionistlər daha tarazlı mövqe tutur. Onlar hesab edirlər ki, qloballaşma dövlətin gücünü tamamilə aradan qaldırmır, onu yenidən qurur. Transformistlərə görə dövlətin funksiyaları və təsir mexanizmləri dəyişir başqa sözlə iqtisadi və texnoloji idarəetmə kimi sahələrdə dövlətin rolu azalır, tənzimləmə, sosial siyasət, təhlükəsizlik sahələrində isə artır.

Ümumi şəkildə desək, qloballaşma dövlətin siyasi hakimiyyətini zəiflətmir. O, dövlətin struktur və təbiətini transformasiya edir və bu yanaşma müasir elmi müzakirələrdə dominant mövqe kimi qəbul olunur.

Qloballaşma ilə birlikdə gələn ən əsas yeniliklərdən biri də gücün yeni mənbələrinin yaranmasıdır. Klassik dövrdə güc hərbi, iqtisadi və inzibati resurslara əsaslanırdı. Müasir dövrdə isə informasiya, mədəniyyət, bilik və texnologiya kimi qeyri-maddi resurslar ön plana çıxmışdır.

Cozef Nayın ən məhşur konsepsiyalarından olan "Yumşaq Güc" konsepsiyasında göstərir ki, müasir dövrdə siyasi təsir yalnız məcburiyyətlə yox, həmçinin razı salma yolu ilə də həyata keçirilir. Bu amil ələxsus qlobal media, internet və mədəni məhsulların təsiri ilə baş verir. Ümumi şəkildə desək qloballaşma kontekstində güc münasibətləri yumşaq formaya keçir [11].

Manuel Kastels "Kommunikativ Güc" konsepsiyasında nəzərimizə çatdırır ki, İT gücü şəbəkə içində əlaqə yaratmaq və mənanı idarə etmək qabiliyyəti kimi müəyyən edir. Bu mənada güc artıq məlumat axınlarını və ictimai diskursu idarəetmək bacarığıdır [6].

Saskiya Sassen "Ərazi, Hakimiyyət, Hüquqlar" əsərində bildirir ki, dövlətin siyasi hakimiyyətinin zəifləməsi təkcə iqtisadi və texnoloji səviyyədə baş vermir. Qloballaşma kontekstində o həm də institusional səviyyədə baş verir ki, burada transmilli korporasiyalar, beynəlxalq maliyyə mərkəzləri və hüquqi rejimlər milli qərarvermə mexanizmlərinə təsir göstərərək suverenliyin parçalanmasına gətirib çıxarır [13].

Qloballaşma kontekstində dövlətin siyasi hakimiyyətinə təsir göstərən ən əsas aktorlar transmilli səviyyədə formalaşır. Aşağıdakı nümunələrə nəzər salaq:

1. Transmilli korporasiyalar; çoxmilyardlıq iqtisadi gücə malik bu qurumlar (Apple, Microsoft, Google və.s ) dövlətlərin vergi, əmək və ekoloji siyasətinə birbaşa və ciddi təsir göstərir. Bir çox hallarda onların maliyyə gücü ölkənin milli iqtisadiyyatının gücündən daha böyük olur.
2. Beynəlxalq təşkilatlar (BMT, Aİ, AŞ, BVF və.s); dövlətlərin daxili siyasətinə hüquqi və normativ vasitələrlə təsir göstərmək imkanına malikdirlər. Misal üçün, Beynəlxalq Valyuta Fondunun iqtisadi islahat tələbləri bir çox ölkələrin sosial siyasətini müəyyən edir.
3. QHT-lər; insan haqları, ekoloji təhlükəsizlik, korrupsiya ilə mübarizə və.s kimi sahələrdə ictimai rəy formalaşdıraraq dövlətin qərar qəbuluna ciddi təsir göstərillər.

4. Media və sosial şəbəkə platformaları ( TV kanalları, İnstagram, Facebook, TikTok); informasiya mübarizəsi əsrində siyasi legitimlik və ictimai etimadın əsas formalaşdırıcısına çevrilmişdir.

Bu aktorların artan təsiri səbəbindən dövlətin siyasi hakimiyyəti artıq tək mərkəzdə cəmlənmiş güc kimi formalaşmır. O, qlobal səviyyədə paylanmış və dinamik qarşılıqlı asılılıqlar sistemi kimi mövcud olur.

Mövcud politoloji ədəbiyyat göstərir ki, qloballaşma kontekstində dövlətin siyasi hakimiyyətinin zəifləməsi prosesi vahid istiqamətli olmur. Streync, Kastels, Sassen, Robertson kimi müəlliflər dövlətin real güc itirdiyini iddia edir [12]. Əksinə Xirst, Tompson kimi müəlliflər isə bu prosesin nisbi xarakter daşıdığını, başqa sözlə desək dövlətin sadəcə yeni şəraitə uyğunlaşdığını qeyd edirlər [9]. Bu müxtəlif ortaq nöqtəsi  ondan ibarətdir ki, onlara görə qloballaşma dövlətin siyasi hakimiyyətinin forma və mexanizmlərini dəyişir, onun mahiyyətini tamamilə ləğv etmir. Yəni müasir dövrdə dövlət koordinasiyaedici, tənzimləyici və adaptiv rolda çıxış edir.

## QLOBALLAŞMA ŞƏRAİTİNDƏ DÖVLƏTİN SİYASİ HAKİMİYYƏTİNİN TRANSFORMASİYASININ AZƏRBAYCAN NÜMUNƏSİNİN TƏHLİLİ

Azərbaycan Respublikası ötən əsrin sonlarından başlayaraq qloballaşma proseslərinin aktiv iştirakçı olmuşdur. SSRİ-in dağılması və müstəqilliyin bərpasından sonra beynəlxalq siyasətə və qlobal iqtisadi sistemə inteqrasiya istiqamətində ciddi addımlar atmış ölkənin strateji mövqeyi (Xəzər dənizi regionu, enerji resursları, nəqliyyat dəhlizləri) və zəngin enerji ehtiyatları onun qloballaşma prosesində prioritet oyunçu olmasına səbəb olmuşdur. Bununla yanaşı Azərbaycan Respublikası siyasi hakimiyyətinin xarici təsirlər qarşısında yeni transformasiyası ilə üzləşmişdir.

Ötən əsrin 90-cı illərindən sonra ölkədə iqtisadi inkişafında qloballaşma iki əsas məqamda özünü göstərmişdir. Bunlardan enerji sektoru və beynəlxalq sərmayələr sahəsinin adını çəkmək olar. Azərbaycan  Respublikasının iqtisadi gəlirlərinin çox böyük hissəsi enerji ixracına əsaslandığından, beynəlxalq bazarların və transmilli şirkətlərin təsiri bu sektorda inanılmaz dərəcədə yüksəkdir. SOCAR, BP kimi nəhəng transmilli korporasiyalar Azərbaycanın enerji sektorunda milli iqtisadi siyasətinə birbaşa təsir göstərirlər. Əlavə olaraq isə beynəlxalq maliyyə inteqrasiyasını qeyd edək. Azərbaycan Respublikası Dünya Bankı, BVF və digər beynəlxalq qurumlarla əməkdaşlıq edir ki, buda fiskal və iqtisadi siyasətə müəyyən normativ və maliyyə məhdudiyyətləri gətirir. Nəticə etibarilə, ölkənin iqtisadi suverenliyi qismən məhdudlaşır. Maliyyə və investisiya axınlarında beynəlxalq tələblərə uyğunlaşma prosesi güclənir [2].

Qloballaşma dövründə ölkənin beynəlxalq hüquq və normalara inteqrasiya prosesi sürətlənmişdir. Azərbaycanın üzv olduğu beynəlxalq təşkilatlar və müqavilələr (BMT, ÜTT, AŞ, Enerji İxracatçıları Ölkələrinin Forumları, Aİ və.s) milli qanunvericiliyə ciddi təsir etmişdir. Məsələn, Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarının Azərbaycan qanunvericiliyinə təsiri, ÜTT-ın standartlarına uyğun ticarət siyasəti, BMT və digər beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində qəbul edilmiş normativ öhdəliklər. Bu kimi proseslər əslində milli hüquqi suverenliyin qismən məhdudlaşmasına gətirib çıxarır. Lakin dövlətin siyasi hakimiyyətinin beynəlxalq çərçivədə yeni formalar almasına səbəb olur [10].

Respublikanın mədəni məkanda qloballaşması öz təsirini çoxşaxəli aspektdə göstərir. Bu faktorları nəzərə alaraq deyə bilərik ki, bu gün qərb mədəniyyətinin təsiri xüsusilə gənclər arasında yüksəkdir. Media və sosial şəbəkələrdə qlobal ideoloji diskursların yayılmışdır. Həmçinin xarici mədəniyyət məhsullarının milli auditoriyada geniş şəkildə qəbul edilmişdir. Bu kimi mədəni təsirlər nəticəsində ölkənin milli ideoloji legitimliyi əsaslı olaraq dəyişmiş və buda dövlətin ictimai dəstək bazasına ciddi təsir göstərmişdir.

Hər bir ölkə kimi Azərbaycan üçün də milli təhlükəsizlik məsələsi strateji əhəmiyyət kəsb edir. Qeyd etmək lazımdır ki, qloballaşma şəraitində təhlükəsizlik siyasəti yalnız milli sərhədlərlə məhdudlaşmır. Regional geosiyasi dəyişikliklər, Enerji təhlükəsizliyi, Kiber təhlükəsizlik, Qlobal

təhlükəsizlik sisteminə inteqrasiya və.s kimi aspektlər dövlətin təhlükəsizlik suverenliyini qloballaşma şəraitində yeni çərçivələrə uyğunlaşdırmağa məcbur edir [1].

Azərbaycan nümunəsi göstərir ki, qloballaşma prosesi hər bir dövlətin siyasi hakimiyyətinə məhdudiyyətlərlə yanaşı yeni imkanlar da gətirir. Fiskal və hüquqi suverenliyin azalması, ideoloji legitimlik üçün rəqabət, beynəlxalq aktorların təsiri ən nəzərə çarpan məhdudiyyətlərdir. Qlobal iqtisadi inteqrasiya, beynəlxalq əməkdaşlıq və normativ təsir vasitələri, beynəlxalq legitimlik amillərini isə imkanlar kimi qeyd etmək olar. Son olaraq qeyd edək ki, müasir dövrdə dövlətin siyasi hakimiyyəti artıq yalnız milli suverenlik deyil, həmçinin qlobal idarəetmə sistemi ilə qarşılıqlı inteqrasiya prosesidir.

## YEKUN NƏTİCƏ

Nəticə olaraq qeyd etmək lazımdır ki, qloballaşma kontekstində dövlətin siyasi hakimiyyətinə dair təsəvvürləri köklü sürətdə dəyişmişdir. Əgər ötən əsrin ortalarına qədər siyasi hakimiyyət fenomeni dövlətin sərhədləri, milli suverenlik və daxili legitimlik ilə məhdudlaşdırılırdısa, bu əsrdə siyasi hakimiyyət qlobal qarşılıqlı asılılıqlar sistemi ilə əvəzlənmişdir. Qloballaşma amili dövlətin suverenlik əsasını yalnız zəiflətmir, həmçinin onu yenidən formalaşdırır. Müasir dövrdə dövlətlər təkbaşına deyil, beynəlxalq təşkilatlarla, transmilli korporasiyalarla və regional ittifaqlarla birgə fəaliyyət göstərirlər. Bu isə öz növbəsində paylaşılan hakimiyyət yaxudda normativ qarşılıqlı asılılıq kimi yeni anlayışların yaranmasına səbəb olmuşdur. Bu zəmində siyasi güc artıq məkanla, sərhədlərlə məhdudlaşmır. Başqa sözlə desək hakimiyyət qlobal idarəetmə sisteminin müxtəlif səviyyələri arasında dağılmış şəkildə mövcuddur.

Azərbaycan nümunəsinə gəldikdə isə deyə bilərik ki, bu, ümumi tendensiyaların regional müstəvidə konkret təzahürünü açıq şəkildə göstərir. 1991-ci ildən sonra Azərbaycan Respublikası həm iqtisadi, həm də siyasi sahədə qlobal sistemə inteqrasiya prosesi keçmişdir. Ölkənin zəngin enerji ehtiyatları və coğrafi mövqeyi onu qloballaşmanın əsas oyunçularından birinə çevirmişdir. Eyni zamanda, ölkənin beynəlxalq təşkilatlarla xüsusilə Birləşmiş Millətlər Təşkilatı, Avropa Şurası və Dünya Bankı ilə əməkdaşlığı hüquqi və institusional sahələrdə normativ uyğunlaşma prosesini dahada genişləndirmişdir. Bu kimi amillər milli qanunvericiliyin beynəlxalq hüquq prinsipləri ilə inteqrasiyasına səbəb olmuşdur. Başqa sözlə desək, dövlətin hüquqi suverenliyini tam aradan qaldırmadan onun xarakterini dəyişdirmişdir. Ən ümumi şəkildə Azərbaycanda siyasi hakimiyyətin daha çox şərikli legitimlik və qlobal uyğunlaşma kontekstində fəaliyyət göstərdiyi nəzərə çarpır.

## ƏDƏBİYYAT


1. Aslanlı, K. Qloballaşma şəraitində milli iqtisadi təhlükəsizlik problemləri // Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri. İqtisadiyyat seriyası. – 2020. – № 1(3). – s. 45–56.
2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi. Azərbaycanın iqtisadi islahatlar strategiyası 2021–2025. – Bakı: İqtisadiyyat Nazirliyi, 2023. – 84 s.
3. Beck, U. Power in the global age: A new global political economy. – Cambridge: Polity Press, 2005. – 180 s.
4. Bourdieu, P. Language and symbolic power. – Cambridge: Polity Press, 1991. – 302 s.
5. Castells, M. Communication power. – Oxford: Oxford University Press, 2009. – 571 s.
6. Castells, M. The rise of the network society. 2-ci nəşr. – Oxford: Blackwell, 2000. – 597 s.
7. Foucault, M. Power/knowledge: Selected interviews and other writings, 1972–1977 / red. C. Gordon. – New York: Pantheon Books, 1980. – 270 s.
8. Held, D., McGrew, A. Global transformations: Politics, economics and culture. – Stanford: Stanford University Press, 1999. – 540 s.
9. Hirst, P., Thompson, G. Globalization in question: The international economy and the possibilities of governance. – Cambridge: Polity Press, 1996. – 318 s.

10. Mahmudov, E. Qloballaşma dövründə dövlət suverenliyi və beynəlxalq hüquq münasibətləri // Bakı Dövlət Universitetinin Elmi Xəbərləri. Hüquq seriyası. – 2021. – C. 4(2). – 15–27 s.
11. Nye, J.S. Soft power: The means to success in world politics. – New York: PublicAffairs, 2004. – 191 s.
12. Robertson, R. Globalization: Social theory and global culture. – London: Sage Publications, 1992. – 211 s.
13. Sassen, S. Territory, authority, rights: From medieval to global assemblages. – Princeton: Princeton University Press, 2006. – 493 s.
14. Strange, S. The retreat of the state: The diffusion of power in the world economy. – Cambridge: Cambridge University Press, 1996. – 215 s.
15. Weber, M. The theory of social and economic organization / tərc. A.M. Henderson, T. Parsons. – New York: Oxford University Press, 1947. – 436 s.

## WEAKENING OF THE POLITICAL POWER OF THE STATE IN THE PERIOD OF GLOBALIZATION: NEW POWER CENTERS AND TRANSNATIONALITY

**N.A. Mirzalizade**

The topic under study is considered very relevant today. For this purpose, the study aims to explain the weakening of the political power of the state in the period of globalization in a theoretical and empirical context. The main goal of the study is to determine the mechanisms of globalization affecting the political power of the state. In addition, it is to explain the reasons for the emergence of new power centers in the period of globalization and their relationship with the legitimacy base of the state.

For this purpose, the following scientific tasks are defined:

Explain the theoretical foundations of the concepts of globalization and political power, identify the main global processes that lead to the weakening of the political power of the state, examine the growing role of transnational actors (corporations, international organizations, NGOs, media, etc.) in the system of political power, evaluate the adaptation mechanisms of the political power of the state and new forms of governance.

The scientific hypothesis of the article is that the globalization process does not completely abolish the political power of the state. Globalization changes the structural and functional boundaries of political power, causing power to acquire a multi-centered character. The scientific significance of the article is that the study examines the impact of globalization on the political power of the state not only in economic and legal aspects, but also from the perspective of political theory, ideology and power relations. In this regard, a new analytical framework is presented regarding the transformation of the political power of the state in the modern era. Methodologically, the study is based on a synthesis of structural-functional, historical-comparative and analytical approaches, which allows us to analyze the political power of the state not only as the activity of institutions, but also in the system of social relations, ideological and information asymmetries. Thus, the study examines the impact of globalization and transnationalization processes on the political power of the state as a multidimensional phenomenon. The article aims to contribute to the classical concept of sovereignty, as well as to modern theories of global politics.

**Keywords:** *Globalization, political power, state sovereignty, powerful transformation, global politics, political modernization*

# ОСЛАБЛЕНИЕ ПОЛИТИЧЕСКОЙ ВЛАСТИ ГОСУДАРСТВА В ПЕРИОД ГЛОБАЛИЗАЦИИ: НОВЫЕ ЦЕНТРЫ СИЛЫ И ТРАНСНАЦИОНАЛЬНОСТЬ

**Н.А. Мирзализаде**

Изучаемая тема считается весьма актуальной на сегодняшний день. С этой целью исследование направлено на теоретическое и эмпирическое объяснение ослабления политической власти государства в период глобализации. Основная цель исследования — определить механизмы влияния глобализации на политическую власть государства. Кроме того, необходимо объяснить причины появления новых центров силы в период глобализации и их взаимосвязь с легитимной базой государства.

Для этого определены следующие научные задачи:

Обосновать теоретические основы концепций глобализации и политической власти, выявить основные глобальные процессы, приводящие к ослаблению политической власти государства, рассмотреть растущую роль транснациональных акторов (корпораций, международных организаций, НПО, СМИ и т. д.) в системе политической власти, оценить механизмы адаптации политической власти государства к новым формам управления.

Научная гипотеза статьи заключается в том, что процесс глобализации не отменяет полностью политическую власть государства. Глобализация изменяет структурные и функциональные границы политической власти, в результате чего власть приобретает многоцентровый характер. Научная значимость статьи заключается в том, что исследование рассматривает влияние глобализации на политическую власть государства не только в экономико-правовом аспекте, но и с точки зрения политической теории, идеологии и властных отношений. В этой связи представлена новая аналитическая концепция, касающаяся трансформации политической власти государства в современную эпоху. Методологически исследование основано на синтезе структурно-функционального, историко-сравнительного и аналитического подходов, что позволяет рассматривать политическую власть государства не только как деятельность институтов, но и в системе социальных отношений, идеологической и информационной асимметрии. Таким образом, исследование рассматривает влияние процессов глобализации и транснационализации на политическую власть государства как многомерное явление. Статья призвана внести вклад в классическую концепцию суверенитета, а также в современные теории глобальной политики.

**Ключевые слова:** *Глобализация, политическая власть, государственный суверенитет, мощная трансформация, глобальная политика, политическая модернизация.*